*Lalə Əlizadə. Məhəmməd Füzuli Türkiyə tədqiqatçılarının araşdırmalarında (İsmayıl Hikmətin "Azərbaycan ədəbiyyatı tarixi" əsəri əsasında)//Əlyazma kitabı Azərbaycan-Türkiyə elmi mədəni əlaqələr kontekstində, 24 oktyabr 2023-cü il, s.105-108.*
https://doi.org/10.59849/mbcatr.2023.105

**Orcid: 0009-0005-6909-6383**

**Lalə Əlizadə**
*Azərbaycan Memarlıq və İnşaat Universiteti*
*filologiya elmləri doktoru, professor*
tarana_abasova@bk.ru

## MƏHƏMMƏD FÜZULİ TÜRKİYƏ TƏDQİQATÇILARININ ARAŞDIRMALARINDA (İSMAYIL HİKMƏTİN "AZƏRBAYCAN ƏDƏBİYYATI TARİXİ" ƏSƏRİ ƏSASINDA)

**Xülasə**

Məruzə görkəmli türk ədəbiyyatşünası İsmayıl Hikmətin klassik Azərbaycan poeziyasının sönməz günəşi Məhəmməd Füzuıli yaradıcılığına həsr olunmuş tədqiqatı ilə bağlıdır. Bəllidir ki, İsmayıl Hikmət bir müddət Azərbaycanda çalışmış, bu müddətdə "Azərbaycan ədəbiyyatı tarixi"nin II cildini qələmə almışdır. Həmin kitabda müəllif Məhəmməd Füzulinin də həyatı, dövrü, mühiti, ədəbi irsi ilə əlaqədar mənbələrindəki qeydlərə münasibət bildirməklə şairin həyat və yaradıcılığını elmi-nəzəri, dini-fəlsəfi, ictimai yöndən araşdırmışdır. Biz də öz növbəmizdə sözügedən əsər əsasında dahi Füzulimizin ortaq türk ədəbiyyatı kontekstində mövcud materiallara və məxəzlərə istinadla müasir dövr ədəbiyyatşünaslığımızın problemləri üzərindən, novatorluq mövqeyindən mülahizələrimizi, düşüncələrimizi təhlilə gətirməyə çalışmışıq.

Məhəmməd Füzuli kimi dahi şəxsiyyətlərin irsi artıq əsrlərdir ki, Türkiyə və Azərbaycan xalqlarının vahid mədəniyyətinin simvolu olaraq "bir millət, iki dövlət" ideologiyasının bariz nümunəsi kimi iki qardaş xalq arasında əbədi ünsiyyət missiyanı uğurla yerinə yetirir, dahi sənətkarın şair-aşiq obrazı istər bədii, istərsə də şəxsiyyət timsalında zamanında olduğu kimi bu gün də əlçatmazlığını və möhtəşəmliyini qoruyur.

Qeyd etməliyik ki, İ.Hikmətin sözügedən əsərindəki Füzuli oçerki mövzuya yanaşma, təhlil və təfsir tərzi, ardıcıl, müfəssəl mühakimələri, qənaətləri, özəl təlqin və izahları ilə maraq doğurur, yeri gələndə, sağlam müzakirəyə, polemikaya imkan verir. Klassik poeziyamızın şifrəli, kondlu, mətnaltı simvolikası onun hər yeni nəsil tərəfindən fərqli dərkinə imkan verdiyindən belə tədqiqatlar aktualdır.

Belə ki, klassik poeziya nümayəndələrinin, o cümlədən M.Füzulinin yaradıcılığı ətrafında gedən fikir və mübahisələrdə çox zaman orta əsrlər sxolastikası, dini-irfani görüşlərin təhlilləri bu yaradıcılıq nümunələrini daha yaxşı dərk etməyə yardım edir.

Əlbət ki, Məhəmməd Füzulinin yaradıcılığını bu günün prizmasından təhlil etmək, əsərlərini ittiham və ya təftişə cəlb etmək yolverilməzdir. Şairin yetişdiyi mühit, yaşadığı ictimai-siyasi formasiyaya, ona təsir göstərən ədib və din xadimlərinin yaradıcılığı, müasirləri olan tarixi şəxsiyyətlərin dövrə nüfuz etməsi və s. amillər mütləq nəzərə alınmalıdır. Məhz İ.Hikmətin araşdırmalarında həmin problemə yanaşma obyektiv şəkildə, dövr və zaman, mühit və mənəvi-əxlaqi düşüncəyə əsaslanır ki, biz də mövcud yazımızda müəllifin təhlillərindən gətirdiyimiz sitatlarla fikrimizi əsaslandırmışıq.
**Açar sözlər:** İsmayıl Hikmət, Məhəmməd Füzuli, qəsidə, Mövlana, sufi

**Lala Alizadeh**

## MOHAMMED FÜZULI IN THE RESEARCH OF TURKISH RESEARCHERS (BASED ON "THE HISTORY OF AZERBAIJAN LITERATURE" BY ISMAYIL HIKMAT)

**Abstract**

The report is related to the famous Turkish literary critic Ismayil Hikmet's study which is dedicated to the creativity of Muhammed Fuzuli who is the unfaded sun of the classical Azerbaijani poetry. It is known that Ismayil Hikmet had worked in Azerbaijan for some time and during that period he wrote the II volume of " The History of Azerbaijan Literature". In that book the author researched the poet's life and creativity from a scientific-theoretical, religious-philosophical, and social point of view by commenting on

the notes in his sources about the life, period, environment, and literary heritage of Muhammad Fuzuli. We, in our turn, tried to express our thoughts and considerations with reference to existing materials based on our genious Fuzuli's common Turkish literature from doing innovation point of view. The legacy of geniuses such as Muhammad Fuzuli has been successfully fulfilling the mission of eternal communication for years between two brotherly peoples as a symbol of the unified culture of Turkey and Azerbaijan peoples. The poet-lover character of the poet preserves its inaccessibility and magnificence in the examples of both charcter and literary approaching even today.

We should note that essay called Fuzuli in the work of I. Hikmet arouses interest due to his approach to the topic, analysis and interpretation style, consistent, detailed judgments, conclusions, private insinuations and explanations, and time to time it allows healthy discussion and polemics. Such studies are actual because the subtextual symbolism of our classical poetry allows to understand it from different aspects by each new generation.

Thus, the analyzes of medieval scholasticism and religious-mystical views in the ideas and debates surrounding the creativity of representatives of classical poetry, including M. Fuzuli, help to understand these examples of creativity better.

Of course, it is inadmissible to analyze Muhammad Fuzuli's work from the perspective of today, to bring his works into accusation or scrutiny. The factors such as the environment in which the poet grew up, the socio-political formation in which he lived, thinkers and religious figures who influenced him, and the historical figures who were his contemporaries must be considered. In the researches of I.Hikmet, the approach to that problem is objectively based on era, time, environment, spiritual and moral thought, which we have justified our opinion with quotes from the author's analysis in our current article.

**Key words:** Ismail Hikmat, Muhammad Fuzuli, qasida, Maulana, sufi

Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin yaradıcılığı, mühiti, şəxsiyyəti barədə araşdırmalar, onun əsərlərinin nəşri və təbliği Türkiyədə uzun zamandır ki, xüsusi ehtiram və məhəbbətlə aparılmaqdadır.

Öncədən xatırladaq ki, şairin özünün yazdığı kimi, hələ sağlığından müasirləri – təzkirəçilər, katiblər tərəfindən izlənilmiş, ədəbi irsi yazılı şəkildə tarixin səhifələrinə köçürülmüşdür. Elə bu səbəbdəndir ki, XVI əsrdən XXI əsrin hazırkı günlərinədək Məhəmməd Füzuli Türkiyədə sevilərək təqiq olunmaqda və öyrənilməkdədir.

Şairin Azərbaycanca "Divan"ının dibarəsində oxuyuruq:

*Seyti-səfahət ilə sözüm tutdu aləmi,*
*Mən məhdi-etibardə tifli-zəbun hənuz.*
*Buyi xoşumla oldu müəttər dəmağlər,*
*Mən nafeyi-vücuddə bir qətrə xun hənuz.* (Füzuli, 1958: 42).

Klassik ədəbiyyatımızın görkəmli tədqiqatçılarından olan akademik Həmid Araslı "Böyük Azərbaycan şairi Füzuli" adlı monoqrafiyasında şairin irsinin öyrənilməsi tarixindən danışarkən onun haqqında ilk məlumatı verən Qastimonlu Lətifinin (1546-cı il, 953 hicri) bitirdiyi təzkirəsindən gətirdiyi aşağıdakı sitatı xatırlamaq istərdim: *"Füzuliyi-Bağdadi bu dövr şüərasındandır. Nəvai tərzinə yaxın ürək ovlayan bir tərzi, gözəl üslubu vardır. Tərzində orijinal və təriqində yenilikçidir"* (Araslı, 1958: 6).

Müəllif bu məlumatın bir neçə cəhətdən tarixi və elmi mahiyyəti olduğunu vurğulayaraq, onun Nəvai ilə müqayisəsinin xüsusilə əhəmiyyətli olmasını diqqətlə çatdırır, onun dil və üslub cəhətdən Rum, yəni Osmanlı şairlərindən fərqləndirdiyini, o dövrün ədəbiyyatşünasları tərəfindən də təsdiqləndirildiyini bildirir.

Türkiyə təzkirəçilərindən Aşıq Çələbi, Həsən Çələbi (1568), Bəyani (1592), Ali, Riyazi, Feyzi kimi müəlliflər Məhəmməd Füzulinin həyatı və irsi ilə bağlı maraqlı məlumatlar vermiş, bəzən bu mənbələrdə bir-birini təkzib edən faktlar da yer almışdır. XX əsrdə bu təzkirələr Türkiyə ədəbiyyatşünasları tərəfindən yenidən nəzərdən keçirilmiş və şairin elmi bioqrafiyasının hazırlanması istiqamətində mühüm işlər görülmüşdür.

Türkiyə tədqiqatçılarından professor Fuad Köprülüzadə 1924-cü ildən başlayaraq Füzuli külliyatına yazdığı müqəddimədə şairin tərcümeyi-halı, atası, ustadı olan Rəhmətullahın qızını sevməsi haqqındakı məlumatları dəqiqləşdirən, o cümlədən əsərlərinin siyahısını elmi şəkildə tərtib edən, ən başlıcası isə Füzulini Osmanlı deyil, Azərbaycan şairi kimi təsdiq edən alimlərdəndir. M.Füzulinin Süleyman Nəzifi,

Kamal Ədib, Əbdülbaqi Kölpinarlı, Əbdülqadir Qaraxan, Hasibə Mazıoğlu, Əli Nəhad Tərlan kimi görkəmli türk tədqiqatçıları bu ləyaqətli işi davam etdirmişlər. Onların arasında zəhməti keçən tanınmış ədəbiyyatşünas İsmayıl Hikmətin adını hörmətlə yad etmək istərdik. Alim "Azərbaycan ədəbiyyatı tarixi" əsərinin ikinci cildində şairin ədəbi fəaliyyətinin 400 illiyi münasibətilə, Füzulinin farsca divanının müqəddiməsi haqqında danışmış, ümumən M.Füzuli ilə bağlı tədqiqlərini çap etdirmişdir. Məhz hazırkı məqaləmiz də İ.Hikmətin 1925-ci ildə Bakıda, Azərbaycan ədəbiyyatı cəmiyyətinin nəşr etdiyi həmin kitabda gedən araşdırmalarına həsr olunmuşdur. Öncə İ.Hikməti hərtərəfli dünyagörüşə malik bir ziyalı, alim olması haqda İslam ensiklopediyasındakı geniş məlumatı xatırlatmaqla əsas mətləbə keçmək istərdik.

İsmayıl Hikmət həmin əsərində Məhəmməd Füzulinin tərcümeyi-halı (irəlidə haqqında müxtəsər söz açdığımız təzkirə ədəbiyyatı əsasında), elmi-dini məfkurəsi və sənətkarlığı ətrafında araşdırmasını mərhələli şəkildə ortaya qoyur, polemikalara qoşulur. Alim şairin doğulduğu yer, məskəni, milliyyəti, dili və s. barədə danışarkən belə bir qənaətə gəlir ki, ən səhih olanı şairin türkcə və farsca divanlarında özünün yazdığı məlumatdır.

İctimai mövqeyi, saray və saray mühitinə münasibətinə gəlincə belə düşünür: "*Şair şahların öz adlarına qiymət və qüvvət vermək, sarayların ehtişamını artırmaq üçün də olsa, zamanlarındakı şair, alim və sənətkarlara hörmət və iltifat etmələri ilə, şeir, sənət və elm sahəsində lap çox ləyaqətli şəxsiyyətlər yetişdirməsinə şərait yaratdığını bildirir. Bununla belə, bu şair və sənətkarların saray ətrafında toplanmaları, ilham və həyəcanlarını dindən almaları üzündən türk ədəbiyyatı dəxi islami, farsi ədəbiyyatı kimi müəyyən bir çərçivədən kənara çıxamadığını da mənfi hal kimi dəyərləndirir*" (Hikmət, 2022: 655).

İ.Hikmətin qənaətinə görə, Füzulinin nümayəndəsi olduğu divan ədəbiyyatı elmi və ədəbi feyzini mədrəsələrdən alan, saraylar mühitində təkmilləşən sxolastik bir ədəbiyyat idi. Təbii, bunun müəyyən bir dairəsi, bir dili, qənaəti və müəyyən bir sənəti vardı. Şair öz duyğularını duyduğu kimi ifadə etmək, duyurmaq azadlığına sahib deyildi. Ustadından nə görürsə, onu öyrənməyə, onu təqlid və tənzir etməyə məcbur idi. Bu məcburiyyət də bədiiyyatdakı əsliyyəti və yaradıcılıq özünəməxsusluğunu öldürmüşdür. Həqiqətən də, Füzuli dövrünün türk ədəbiyyatı klassik və sxolastik farsdilli ədəbiyyatın bir nəzirəsi idi. Təkmil hisslər, fikirlər, xəyallar, hətta təşbih və istiarələr, poetik obrazların hamısı bir mənşədən, bir ana qaynaqdan gəlirdi, hətta bədii nümunələrdə milli düşüncə fərqini belə görülmək mümkün deyildi. Çünki zehniyyət və qənaət tamamilə bir-birinin eyni idi: islamidir. Mövzularda da elə bir dəyişiklik yox idi. Təsəvvüfi baxışlar ərəb ədəbiyyatından farsdilli poeziyaya, oradan da türkdilli ədəbiyyata keçmişdi. Dar çərçivə içində edilə biləcək bütün fövqəladəlik şairin öz qüdrət və qabiliyyətinə, həyəcan və sənətinə bağlı idi. Yəni Füzulinin ədəbiyyatda etdiyi yenilik ənənə daxilində xəqiqi novatorluq idi.

İ.Hikmətə görə, minlərcə insan tərəfindən söylənmiş, təkrar edilmiş mövzuları eyni qəliblər, eyni malzəmə və vasitələrlə başqa dürlü söyləmək imkanını yaradan şair, şübhə yox ki, həm şair, həm də sənətkardır. Bu şərait içində seçilməyi bacaran, özünə xüsusi mövqe qazanan bir çox şairlər XV əsrdə meydana gəldi. Bunlardan biri və şairlik qiymətiylə hamısından üstünü Azərbaycan dil və ədəbiyyatını, dolayısı ilə də bütün türk ədəbiyyatını ölməz bir dərəcədə yüksəldən də Füzulidir.

Məlumdur ki, Füzuli Bağdadda dünyaya gəlmişdir. Hillədə və ya Kərbəlada doğulduğu haqqında ixtilaf vardır. Yeri gəlmişkən Azərbaycan alimlərindən filologiya elmləri doktoru, professor Əkrəm Cəfər bu problemə münasibət bildirir, İsmayıl Hikmətin Füzulinin atası barədəki məlumatını belə təkzib edirdi: "Türkiyə alimi İsmayıl Hikmət yazır: "Füzulinin atasıüləmadan Süleyman əfəndi ismində bir zat imiş. Rəvayətə görə, Hillədə müfti imiş". Yeni material Füzulinin atasının adi bir kəndli, sənətinin də dəvəçilik olduğunu bildirir" (Cəfər, 2010: 24).

Bu sitatı örnək gətirməklə mövzumuzla bağlı iki görkəmli alimin tədqiqatındakı fərqli fikirlərini ortaya qoymağı məqsədəuyğun bildik. Belə ki, məhz belə araşdırma və faktlar sayəsində Füzuli kimi klassiklərin həyatı, ədəbi taleyi ilə bağlı həqiqət ilkin mənbələr əsasında üzə çıxarılıb.

Alim şairin tərcümeyi-halına aid bəzi mübahisəli məsələlərə də aydınlıq gətirir. Onun guya heç vaxt evlənməməsi rəvayətini inkar edir. Fəzli adlı oğlu olmasını onun oğluna müraciətlə qələmə aldığı qəsidə ilə isbat etmiş olur. O, şairin hicri tarixi ilə 963-cü ildə (m. 1556) Bağdadda taundan vəfat etdiyi mülahizəsini qəbul edir və sənətkarın dəfn olunduğu türbəni də təsvir edir.

İ.Hikmət Füzulinin bəktaşilik təriqətinə bağlığı məsələsindən danışarkən də problemə tarixi-sosial konteksdə yanaşır: "*İmam Hüseyn türbəsində çıraqsuzluq etməsi və nəhayət, bəktaşi təkyəsinə dəfn edilmiş olması da bu iddiayı qüvvətləndirir*" – deyə qəti qərara gəlir. Nəticə olaraq onu hansı məzhəbə (şiə, sünni, bəktaşi) aid olub-olmamasından asılı olmayaraq, onu bir mütəsəvvüf hesab edir: "*Həqiqətdə hansı məzhəbə salik olursa*

*olsun, Füzuli mütəsəvvifdür"* (Hikmət, 2022: 663). Eyni zamanda onun Nəsimi və ya Məzcubla da eyniləşdirmir. Passiv bir mütəsəvvüf olduğunu isbat üçün şairin əsərlərindən nümunələr gətirir. Bu sırada Füzulinin hürufi hesab edilməsi iddiasının da səbəbini izah edir və bunu onun oğlu Fəzlinin – Fəzlüllahın adı ilə bağlı olmasından irəli gəldiyini qeyd edir.

Bəlli olduğu kimi, böyük bir şairlik istedadı ilə doğulan Füzuli bu sahədə bilik və bacarıqlarını genişləndirib, qiymətləndirəcək bir ədəbi mühit içində böyümüş və çox erkən şeirə başlamışdı. O, tərcümeyi-halında: *"Zaman-zaman sevdayi-şeir, şair əfalimə qalib düşüb və güruh-güruh Leyliveşlər Məcnun kibi istimai-şeir üçün başıma üyüşüb şairligim müqərrər oldu"*, – sözləriylə bu həqiqəti ifadə edir. Bu baxımdan İ.Hikmət öz araşdırmasında Füzuli kimi bir dahinin yaradıcılığında üç əsas xüsusiyyəti müəyyən edirdi: şair Füzuli, alim Füzuli və əlbbəttə, aşiq Füzuli. Müəllif onun şeiri və sənəti haqqında belə bir mükəmməl tezis irəli sürür. *"Füzuli şair olduğu nisbətdə aşiq və aşiq olduğu nisbətdə də şairdir"* (Hikmət, 2022: 669).

İsmayıl Hikmətin "Azərbaycan ədəbiyyatı tarixi" əsərindəki Məhəmməd Füzuli ilə bağlı oçerki haqqında fikirlərimizə belə bir yekun vurmaq istərdik ki, Füzuli həqiqi eşqi vəsf edən şeirləri ilə "könül mülkünün sultanı" titulunu qazanmış istedadlı şair, böyük mütəfəkkir, müxtəlif problemlər ətrafında mühüm fikirlər yürüdən alim, Allaha, peyğəmbərə, əhli-beytə dərin məhəbbətlə bağlı olan imanlı mütəsəvvüf, poetik istedadı ilə zirvələr fəth etmiş qüdrətli sənətkardır.

**ƏDƏBİYYAT:**


1. Araslı, H. (1958). Böyük Azərbaycan şairi Füzuli, Bakı: Uşaqgəncnəşr.
2. Cəfər, Ə. (2010). Yandım avazeyi eşqinlə sənin, Bakı: "Çaşıoğlu" Nəşriyyatı.
3. Füzuli, M. (1958). Əsərləri, 5 cilddə, I cild, Bakı: Az SSR EA Nəşriyyatı.
4. Hikmət, İ. (2022). Azərbaycan ədəbiyyatı tarixi, Bakı: "Elm və təhsil" Nəşriyyatı.